**«Tədris Mərkəzi faydalı müzakirələr üçün əlverişli məkandır»**

«Kapital Bank»ın lisenziya şöbəsinin aparıcı mütəxəssisi Ramil Məcidov Tədris Mərkəzinin təlim-tədris sahəsindəki uğurlarını kütləvi informasiya vasitələrindən yaxından izlədiyini bildirmişdir. O vurğulamışdır ki, 2011-ci ildə Şamaxı rayonunda müasir iş şəraitinə və infrastruktura malik belə bir mərkəzin inşa olunması regionların inkişafı baxımından da mühüm əhəmiyyət kəsb edir: «Şamaxının səfalı bir məkanında yerləşən Tədris Mərkəzində ilk dəfə oluram və buradakı mükəmməl infrastruktur, iş şəraiti, təlim-tədris prosesi barədə təəssüratlarım olduqca müsbətdir. Mərkəzin 10 illiyi münasibətilə Vergilər Nazirliyinin bütün əməkdaşlarını təbrik edirəm. Bu cür mərkəzlərin regionlarda fəaliyyət göstərməsi həm də respublikanın işgüzar dairələrinin Bakıdan kənarda yaxından tanış olaraq səmərəli müzakirələr aparmasına, qarşılıqlı faydalı əlaqələr qurmasına imkan yaradır. Tədris Mərkəzi faydalı müzakirələr üçün əlverişli məkandır».

Vergilər Nazirliyinin təşkilatçılığı ilə aidiyyəti dövlət qurumlarının aparıcı mütəxəssislərin, müstəqil ekspertlərin və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakilə «Nağdsız ödənişlərin həcminin artırılması və POS-terminallardan istifadənin genişləndirilməsi» mövzusunda seminarın təşkilini müsbət qiymətləndirən Ramil Məcidov əlavə etmişdir ki, bu cür tədbirlər respublikada nağdsız ödənişlərin təşviqi və əhalinin maarifləndirilməsi baxımından zəruridir: «Son vaxtlar ölkədə nağdsız ödəniş sisteminin inkişafı, nağdsız dövriyyənin həcminin artırılması, eyni zamanda elektron xidmətlərin təşkili sahəsində həyata keçirilən tədbirlər daha da genişlənmişdir. Xüsusilə, Vergilər Nazirliyinin bu sahədəki fəaliyyətini olduqca yüksək dəyərləndiririk. Nazirliyin təşkilatçılığı ilə keçirilən seminarda kifayət qədər səmərəli müzakirələr aparıldı, nağdsız ödəniş sisteminin ümumi mənzərəsi barədə təsəvvürlər daha da genişləndi. Ayrı-ayrı dövlət qurumlarının, prosessinq mərkəzlərinin, bankların nümayəndələri nağdsız dövriyyənin genişləndirilməsi məqsədilə planlaşdırdıqları layihələr barədə məlumat verdilər. Mən də «Kapital Bank»ın nağdsız ödənişlərin stimullaşdırılması sahəsində həyata keçirdiyi çoxsaylı layihələr barədə ətraflı məlumat verdim».